**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI HAQQINDA**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasında milli elmi potensialın qorunub saxlanılması və gücləndirilməsi, xalqımızın tarixi və mədəniyyəti ilə bağlı araşdırmaların müasir standartlar səviyyəsində aparılmasının təmin edilməsi, fundamental elmi tədqiqatların əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, elmi fəaliyyətin keçirilməsi üçün daha əlverişli şəraitin yaradılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Elmlər Akademiyası ali dövlət elmi təşkilatı olduğunu nəzərə alınmaqla Azərbaycan Milli Elmlər Akademiyası adlandırılsın.

2. Azərbaycan Milli Elmlər Akademiyası bir ay müddətində Akademiyanın Nizamnaməsinin layihəsini, onun strukturu ilə, habelə elmi potensialından və tərkibindəki müəssisələrin maddi-texniki bazasından istifadə olunmasının effektivliyinin artırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 15 may 2001-ci il
№ 484